UOT 78:371, 321

M.T.Əliyeva
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: m.aliyeva@gmail.com

MUSİQİ MÜƏLLİMLƏRİNİN HAZIRLIĞINDA DİRİJORLUQ DƏRSLƏRİNDƏ MİLLİ MUSİQİDƏN İSTİFADƏ

Açar sözlər: *milli musiqi, xor əsərləri, dirijorluq priyomları*

Azərbaycan musiqi sənəti xalq və professional musiqi nümunələri ilə (o cümlədən də xor musiqisilə) çox zəngindir. Bu əsərləri tədrisə daxil etməklə gənclərimizin milli şüurunu, intonasiya-lad duyumunu, vətənə sevgi hisslərini tərbiyə etmək mümkündür. Dirijorluq sinfinin müəllimi tələbənin peşə vərdişləri və yaradıcı qabiliyyətlərinin inkişafı, obrazlı təfəkkürün, təhlil bacarıqlarının uğurla formalaşması üçün dərslərdə bu cür əsərlərdən istifadə etməlidir.

M.T.Алиева

ИСПОЛЬЗОВАНИЕ НАЦИОНАЛЬНОЙ МУЗЫКИ НА УРОКАХ ДИРИЖИРОВАНИЯ В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ МУЗЫКИ

Ключевые слова: *национальная музыка, хоровые произведения, дирижерские приемы*

Музыкальное искусство Азербайджана очень богато образцами народной и профессиональной музыки (в том числе и хоровой). Включение этих произведений в учебный процесс воспитывает у молодежи национальное сознание, ладо-интонационное чувство, любовь к родным напевам, а через это и к родине. Для успешного развития профессиональных навыков и творческих способностей студентов, формирования их образного мышления и умения анализировать преподаватель дирижерского класса должен использовать на уроках эти произведения.

M.T.Aliyeva

THE USE OF NATIONAL MUSIC IN CONDUCTING CLASSES IN THE PREPARATION OF MUSIC TEACHERS

Key words: *national music, choral works, conductor's techniques*

The musical art of Azerbaijan is very rich in samples of folk and professional music (including choral music). Inclusion of these works in the educational process educates the youth of the national consciousness, the frets-intonational sense, love for native tunes, and through it to the homeland. To successfully develop the professional skills and creative abilities of students, the formation of their imaginative thinking and the ability to analyze the teacher of the conductor class should use these lessons in the lessons.

Azərbaycan musiqi sənəti xalq və professional musiqi nümunələri ilə çox zəngindir. Bu əsərləri tədrisə daxil etməklə gənclərimizin milli şüurunu, intonasiya-lad duyumunu, vətənə sevgi hisslərini tərbiyə etmək mümkündür.

Məlumdur ki, Azərbaycanın professional bəstəkarlıq məktəbinin tarixi 1908-ci ildə Ü.Hacıbəylinin yaratdığı "Leyli və Məcnun" operasından başlanır. Demək olar ki, onun tarixi yüz ildən bir qədər artıqdır. Lakin, tarixi baxımdan bu qısa zamanda azərbaycan bəstəkarları Ü.Hacıbəyli ənənələrinə arxalanaraq bütün klassik janrları mənimsəyib, dünya səviyyəsində olan əsərlər yaratmışlar. Onlar çox böyük dəyəri olan mənəvi sərvət kimi sənət antologiyasının parlaq səhifələrini təşkil edir. Bu əsərlər "tarixi keçmişimizin yadda qalan əzəmətli hadisələrini, bu günümüzün vüsətini, müasirlərin arzu və düşüncələrini, mənəvi-estetik ideallarını nəsillərdən-nəsillərə çatdırır" (1,11). Belə əsərlər sırasında xor üçün yazılmış əsərlər də öz layiqli yerini tutur. Dirijorluq müəlliminin vəzifəsi və borcu öz fənninin tədrisində tələbələrin milli şüur və mənəviyyatlarının formalaşması üçün professional və xalq Azərbaycan musiqisindən istifadə etməkdir. "Azərbaycan professional musiqisinə professional bəstəkarlar yaratdıqları əsərləri aid etmək olar. Burada operalar, baletlər, simfoniyalar, müxtəlif janrlı simfonik əsərlər, instrumental və vokal-instrumental musiqi, mahnıları göstərmək olar" (5,4). Biz bu siyahıya monumental və kiçik həcmli xor əsərlərini də əlavə edərdik. Onu da qeyd etməliyik ki, Azərbaycan bəstəkarları bütün bu adları çəkilən musiqi janrlarda parlaq əsərlər yaratmış ki, onların şöhrəti ölkəmizin hüdudlarından çox-çox uzaqlara yayılmışdır. Dirijorluq sinfinin müəllimi bu əsərlərdən həm dirijorluq texnikasının mənimsənilməsi, həm əsərlərin təhlili, həm də canlı xorla işləmə mərhələsində ustalıqla istifadə etməlidir, hər bir mövzuya uyğun xor əsərlərini araşdırıb-tapmalıdır.

Musiqi müəllimi ixtisasına yiyələnən tələbələr təhsil aldıqları dövrdə dirijorluq texnikasının əsaslarını dərindən mənimsəməlidir. Musiqi müəlliminin dirijorluq texnikasına yiyələnməsi ona görə vacibdir ki, o, dirijorluq jestlərinin köməyi ilə musiqi əsərində verilən bədii məzmunu məktəbli xor kollektivinə, sonra isə onların vasitəsilə dinləyicilərə çatdıra bilsin.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisi mühüm yer tutur. Xor musiqisinə əhəmiyyətli, mənalı, vətəndaş mövzular xarakterikdir. Burada vətənə sadiqlik, sevgi, azadlıq uğrunda mübarizə kimi nəhəng epik mövzular öz əksini tapır. "Xor mədəniyyəti – bəstəkar yaradıcılığının elə sahəsidir ki, burada bədii tərbiyə funksiyaları ictimai-musiqi funksiyaları ilə uyğunlaşır" (2,3). Ölkəmizin musiqi mədəniyyətinin inkişafında, gənc nəslin bədii-estetik zövgünün formalaşmasında, vətənpərvər ruhda böyüməsində xor musiqisinin böyük əhəmiyyəti var. Xor ifaçılığı gənclərdə "fəal həyat mövqeyi yaratmaqla bərabər müəyyən biliklər verməli, əmək, istirahət proseslərinə yaradıcı yanaşmağı öyrətməlidir" (3,60).

Dirijorluq texnikasına ifaya başlamanın və ifanın kəsilməsinin göstərilməsi, müxtəlif sadə, mürəkkəb və qarışıq ölçülərin mənimsənilməsi, auftaktların və sinkopaların ifadə üsulları, dinamikanın və ştrixlərin (legato, stakkato, non legato) ifadə priyomları, müxtəlif templərdə dirijorluq vərdişlərinə yiyələnmə və s. aiddir.

Bütün bu texniki priyomların mənimsənilməsi sözsüz ki, Azərbaycan bəstəkarlarının xor əsərlərinin nümunələri vasitəsilə daha səmərəli həyata keçirilə bilər, çünki ilk növbədə milli musiqi tələbələrimizin qəlbinə, ruhuna daha yaxındır. Digər tərəfdən əks proses də baş verir: azərbaycan əsərlərinin öyrənilməsi tələbələrdə milli təfəkkürü, milli lad və janrların daha da yaxşı mənimsənilməsini, vətənə, onun torpağına, təbiətinə və insanlarına sevgi hisslərini inkişaf etdirir.

Dirijorluq texnikasına yiyələnmə müxtəlif ölçülərdə xanələşdirmə vərdişinin mənimsənilməsindən başlayır. Məsələn, ilkin dövrdə sadə 2/4 ölçünün tədrisi zamanı R.Mirişlinin "Kəpənək" əsərini vermək olar, ¾ ölçüsünün mənilməsini də milli musiqi əsasında aparmaq yaxşı olar (məsələn, R.Şəfəqin, R.Mustafayevin və d. əsərləri üzərində). Həmçinin digər ölçüləri də azərbaycan professional musiqisinə istinadən tədris etmək faydalıdır, məsələn mürəkkəb 4/4 ölçüsünü C.Cahangirovun "Çahargah" xoru nümunəsində mənimsənilməsi səmərəli ola bilər. Həmçinin 6/8 ölçüsünün mənilməsini xalq mahnılarının müxtəlif bəstəkararımız tərəfindən işləmələri üzərində aparmaq çox yaxşı olar.

Musiqi əsərinin müvəffəqiyyətli ifasında auftaktın rolu vacibdir. Auftakt – spesifik qabaqlayıcı dirijorluq jestidir ki, onun vasitəsilə tempin, ritmin, dinamikanın, ştrixlərin, fermatoların, ifanın başlaması və kəsilməsi, eləcə də səslənmədən əvvəl nəfəs almanın göstərilməsi ilə təşkil olunur və

həyata keçirilir.

Xorun eynivaxtda, birgə ifaya başlaması dirijorun xora aydın şəkildə "nəfəs vermə" işarəsindən asılıdır. İfaya başlama priyomlarının göstərilməsi üçün bəstəkarlarımızın elə əsərlərini seçmək lazımdır ki, bu əsərlər müxtəlif ölçülərin müxtəlif vəznlərindən ifa olunsun. Məsələn, ifanın xanə xaricindən başlanmasını Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasından qızların "Bu gələn yara bənzər" xoru vasitəsilə öyrənmək olar, harada ki hər bir frazada səslənmə xanənin ikinci vəznindən başlayır.

Dirijorluqda ifanın kəsilməsi jestinin də çox böyük əhəmiyyəti vardır. Bu jest vaxt baxımından dəqiq, aydın, dinamika baxımından isə musiqinin sonluğunun xarakterinə maksimal dərəcədə uyğun olmalıdır. Bu priyomu da milli musiqi vasitəsilə tələbələrə aşılamaq daha yaxşı nəticə verə bilər.

Bədii ifadəlilik vasitələrindən biri də fermato-dur. Fermato və ya dirijorluqda dayanma, xüsusi işarə ilə qeyd edilir və səslərin və ya pauzaların vaxtının uzadılması işarəsidir. Fermato-nun kəsilən, kəsilməyən, pauza və xanə xətti üzərində növlərinin də ifadə üsullarına dair tələbələrə Azərbaycan musiqisindən nümunələr vermək lazımdır. Məsələn, xanə xətti üzərində fermato A.Əlizadənin "Bayatılar" toplusundan demək olar ki bir çox əsərlərdə işlənir, C.Cahangirovun solist və xor üçün bəstələdiyi "Xəzər" əsərində isə həm kəsilən, həm pauza üzərində (xor partiyasında), həm də kəsilməyən (fortepiano partiyasında) fermato nümunələrini görə bilərik.

Dinamika və frazirovka priyomlarının tədrisinə dair ilk qadın bəstəkarlarımızdan olan H.Nəcəfovanın "Əks səda" əsərini göstərmək olar ki, burada *mp, mf, f* nüansları və əsasən legato ştrixi ilə səsaparıcılığı istifadə olunur.

Müxtəlif ştrixlərin (legato, stakkato, non legato), «sf», «sp», aksentlərin, sinkopanın, tempin və dinamikanın tədrisində milli musiqi nümunələrinin istifadəsi yaxşı nəticə verə bilər. Məsələn, non legato və punktir ritmin ifadə fəndlərini Ü.Hacıbəylinin "Ey, Vətən" himninin timsalında tələbəyə öyrətmək olar. Sinkopanın göstərilməsi üsullarını isə R.Mustafayevin "Nərgizlər" əsəri üzərində işləmək faydalıdır, çünki burada müxtəlif sinkopa növləri mövcuddur (həm iti, həm mülayim və s.).

Müəllimin tələbə ilə yeni əsər üzərində iş prosesi üç əsas mərhələyə bölünür: əsərlə tanışlıq, əsərin öyrənilməsi və əsərin ifası. Əlbəttə, əsərin tədrisi prosesində bu cür bölgü şərti olaraq qəbul edilir. Çünki bir mərhələnin elementləri mütləq digər mərhələ elementlərinə nüfuz edir. Belə ki, birinci mərhələdə tələbə əsərlə tanış olarkən, onda əsərə qarşı yaradıcı münasibət formalaşır ki, bu da sonrakı iş prosesinin yəni ikinci mərhələnin özülünü təşkil edir. Üçüncü mərhələdə, yəni əsərin ifası zamanı, tələbə əsərlə daha da dərindən tanış olur, əsərin yeni xüsusiyyətlərini aşkar edir. Bu iş prosesində müəllim qarşısında duran ən başlıca məsələlərdən biri odur ki, tələbəyə partitura üzərində sərbəst işləməyi öyrətmək lazımdır.

Birinci mərhələni (əsərlə tanışlıq) müxtəlif formalarda həyata keçirmək olar: əsərin disk yazısını dinləmək və yaxud əsərin fortepianoda şəxsi ifa ilə səsləndirməklə. Məsələn, əgər sinifdə Ü.Hacıbəylinin "Koroğlu" operasından "Çənlibel" xoru tədris olunursa, bu zaman Bülbülün iştirakl ilə filmə baxmaq (İnternet vasitəsilə) məsləhətdir. C.Cahangirovun "Sabir" oratoriyası və ya "Füzuli" kantatası öyrənilirsə, bu zaman adları gedən dahi şairlərin nəşr olunmuş əsərləri ilə tanışlıq tələbənin emosional inkişafı, obraza daha dərindən daxil olması üçün böyük köməklik edə bilər. Gördüyümüz kimi, tələbələrdə yaradıcı münasibətin formalaşması üçün müxtəlif yaxın incəsənət növlərinin inteqrasiyasından istifadə etmək faydalıdır.

Dirijorluq dərslərində *a capella* əsərləri üzərində iş xüsusi əhəmiyyət kəsb edir, çünki belə əsərlər üzərində işləyərkən tələbənin incə musiqi duyumu, eşitmə qabiliyyəti, dəqiq manual texnika inkişaf edir. Bu baxımdan Azərbaycan bəstəkarları və görkəmli xormeysterləri tərəfindən xor üçün xalq mahnılarının işləmələri tələbələrdə xalq musiqisini dərk etmə, milli lad duyumunu inkişaf etdirmə işində çox böyük əhəmiyyət kəsb edir. Ü.Hacıbəyli, N.Əliverdibəyov, C.Cahangirov, R.Mustafayev, R.Şəfəq, N.Məlikov, Y.Həbibovun və digərlərinin xalq mahnılarının işləmələri dirijorluq dərslərində tələbələr tərəfindən çox böyük sevgi və həvəslə öyrənilir. Bu amil mürəkkəb bir proses olan dirijorluq texnikasının mənimsənilməsini daha maraqlı edib asanlaşdırır. Azərbaycan bəstəkarları tərəfindən özlərinə məxsus, orijinal çox saylı və müxtəlif tipli a kapella xoru üçün yazılmış əsərlər də mövcuddur ki, bunların üzərində tələbələrlə həm texnika üzərində iş, həm obrazlı düşüncənin inkişafı, həm də təhlil aparma metodlarını işləmək olar.

Gələcəyin musiqi müəllimləri sözsüz ki, məktəbli mahnılarını da dirijorluq sinfində öyrənməlidirlər. Məktəbli mahnısının öyrədilməsi prosesi çoxşaxəli bir işdir. Mahnının bədii məzmununu ifadəli şəkildə açıqlamaq üçün təkcə dirijorluq texnikasına malik olmaq azdır. Dirijorluqdan öncə böyük və çox zəhmət tələb edən mahnı üzərində iş aparılmalıdır. Azərbaycan bəstəkarları yetərincə məktəbli mahnıları bəstələmişlər ki, bunların sırasında R.Şəfəqin, A.Dadaşovun, O.Zülfüqarovun, O.Rəcəbovun və başqalarının adlarını çəkmək olar. Onların mahnıları misalında mahnının təhlili (annotasiyası) üsullarını tələbələrə öyrətmək dirijorluq dərslərində aparılan vacib işlərdən biridir. Bu həmçinin tələbələrdə gələcək fəaliyyətləri üçün faydalı olan mahnı repertuarının toplanmasına xidmət edə bilər.

Beləliklə, gördüyümüz kimi dirijorluq dərslərində tədris olunan hər bir mövzuya dair Azərbaycan professional və xalq musiqisində parlaq nümunələr vardır ki, dirijorluq fənninin müəllimi tələbənin peşə vərdişlərinin, bədii-obrazlı təfəkkürününün, təhlil bacarıqlarının formalaşması və texniki ustalığa yiyələnməsi üçün bunları uğurla tətbiq edə bilər.

ƏDƏBİYYAT

1. V.Xəlilov.“Seçilmiş əsərləri”, Bakı, 2013
2. N.Mirzoyeva. “Xorşünaslıq”, Bakı, 2007
3. J.Qədimova. “Musiqinin tədrisi metodikası”, Bakı, 2007
4. E.Dadaşova, M.Əliyeva. “Dirijorluq və onun tədrisi metodikası”, B., 2013
5. O.Rəcəbov, F.Hidayətova “Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası”, Bakı, 2013

Məqalənin redaksiyaya daxil olma tarixi: 05.05.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20.06.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Minarə Dadaşova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.